Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

# Böyük mükafat...

## "Özünəməxsus tərzdə gözlərini qıyaraq "sonuncu cümlən xoşuma gəldi" dedikdə, dərindən nəfəs aldım, sanki üstümdən dağ götürüldü"



Qərənfil Dünyaminqızı
Əməkdar jurnalist

**Əvvəla onu qeyd edim ki, "Azərbaycanın böyük müəllimi" olan professor Şirməmməd Hüseynov haqqında görkəmli şairimiz Bəxtiyar Vahabzadədən, dəyərli alimlərimiz Şamil Qurbanovdan, Famil Mehdidən, Cahangir Məmmədlidən, Xulu Xəlilovdan, Nəsir Əhmədlidən, Yalçın Əlizadədən, Abid Tahirlidən sonra söz demək böyük məsuliyyətdir.**

Ona görə də, bu məqaləmdə "ömrünü mətbuata xərcləyən" Şirməmməd müəllimlə bağlı xatirələrimdən bəhs etmək istərdim. Şirməmməd müəllimlə ilk dəfə auditoriyada görüşdüm. Partiya mətbuatı tarixindən dərs deyirdi (sonralar dərk etdim ki, o, bizə yalnız jurnalistikanın sirlərini öyrətmədi, həm də milli mətbuatımızın tariximizdə və taleyimizdə oynadığı rolu, iftixar edə biləcək səhifələrini öyrətdi). Mən də yüzlərlə tələbələrindən biri idim. Axırıncı kursda diplom işi yazmaq üçün mövzu götürdüm. Rəhbərim Şirməmməd müəllim oldu. Mövzum 20-ci yüzilliyin əvvəlləri Azərbaycanda çap olunan dövrü mətbuatla bağlı olduğu üçün Şirməmməd müəllim məni ilk dəfə Marksizm-Leninzim İnstitutunun arxivinə (səhv etmirəmsə o zaman adı belə idi, indi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi-Siyasi Sənədlər Arxivi adlanır) apardı. Beləliklə, bir neçə ay, dərsdən sonra arxivə gedərək mövzumla bağlı material topladım və bir gün elmi işimi yekunlaşdırıb Şirməmməd müəllimə təqdim etdim. Doğrusunu deyim ki, həmin an keçirdiyim hiss, həyəcan bu gün də yadımdan çıxmayıb. Nədənsə o zaman əksər tələbə ona yaxınlaşmağa cəsarət etməzdi.

Aradan iki həftəyə yaxın vaxt keçdi. Bir gün "Mətbuat tarixi və ideoloji iş metodları" kafedrasının laborantı mənə bildirdi ki, elmi işinlə bağlı Şirməmməd müəllim səni kafedraya çağırır. Həyəcanla qapını döyərək içəri girdim (həyəcandan salam verməyi də unutdum). Elə bu vaxt Şirməmməd müəllim buraxılış işimə işarə edərək "götür, rəyin də hazırdır, müdafiəyə yaxşı hazırlaş" deyərək, mənə qapını göstərdi.



Bir necə gündən sonra müdafiəyə gəldim. Həyəcanım birə-beş artmışdı. Müdafiə komitəsinin sədri Azərbaycan Jurnalistlər Birliyinin sədri Hacı Hacıyev idi. Kürsüyə qalxdım. Mövzum haqqında yenicə məlumat vermək istəyirdim ki, Şirməmməd müəllim üzünü Hacı müəllimə tutaraq dedi: "Hacı bu iş xoşuma gəldi. Gələcəkdə davam etdirsə, çox yaxşı olar. Mən işi əla qiymətləndirirəm!". Hacı müəllim məmnun halda "əgər belədirsə, mən sizinlə həmrəyəm" dedi. Min bir həyəcanla, təlaşla keçirdiyim 4-5 ay, 4-5 dəqiqəyə qiymətləndirildi: Əla!

Təhsili başa vurduqdan sonra "Ədalət" qəzetində müxbir işləməyə başladım. 1997-ci ildə BDU-nun "Mətbuat tarixi və ideoloji iş metodları" kafedrasına dissertant təyin edildim. "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası (1918-1920-ci illər)" adlı namizədlik mövzum da Şirməmməd müəllimin xeyir-duası ilə təsdiqləndi. Beləliklə, "çağdaş jurnalistikamızın ağsaqqalı, mənəvi atası və ən nəhəng siması" adlandırılan, "böyük fikir adamlarının ömrünün davamçısı" olan, təkcə Rəsulzadəşünaslıq üçün deyil, ümumiyyətlə, Azərbaycanşünaslıq üçün müstəsna əhəmiyyətli iş görən, Azərbaycan mətbuatı tarixinin tədqiqində fövqəladə xidmətləri ilə zəngin töhfələr verən tədqiqatçı alim Şirməmməd Hüseynovla həmkar olsam da, yenə də özümü onun hüzurunda tələbə hiss etdim (Əslində tək mən yox, bu gün jurnalistika fakültəsində çalışan professor, dosent və müəllimlərin əksəriyyəti Şirməmməd müəllimin "şinel"indən çıxaraq, həyatlarını birdəfəlik jurnalistika fakültəsi ilə, peşəkar jurnalist kadrlarının yetişdirilməsi prosesi ilə bağlayıblar. Hələ təkcə bizim kafedrada bir elmlər doktoru, iki dosent yetirməsi çalışır). Və hər dəfə onu gördükdə, içimdə daim yaşatdığım, öləziməyə qoymadığım hisslərdən və bir daha yaşaya bilməyəcəyim o illəri - tələbəliyimi yaşayırdım. Acılı, şirinli (şükür, şirin anları daha çox oldu) tələbəliyimi...

2008-ci ildə dekabr ayında "Türk eli" jurnalında "Axı o Üzeyir bəy idi..." sərlövhəli məqaləm çap olmuşdu. Bir gün Şirməmməd müəllim kafedrada həmin jurnalı çantasından çıxarıb mənə tərəf uzadaraq "Üzeyir bəy haqqında yazdığın məqalənin sonuncu abzasını oxu" dedikdə, doğrusu, məni təlaş bürüdü. Xırıltılı və həyəcanlı səslə oxudum: "...hər halda Üzeyir bəy də Üzeyir bəy idi. Fitri istedadı, təmiz mənəviyyatı, əyilməz şəxsiyyəti ilə böyük olan Üzeyr bəy". Gözlərimi sətirlərdən çəkərək həyəcan dolu baxışlarla Şirməmməd müəllimin üzünə baxdım. Şirməmməd müəllim özünəməxsus tərzdə gözlərini qıyaraq "sonuncu cümlən xoşuma gəldi" dedikdə, dərindən nəfəs aldım, sanki üstümdən dağ götürüldü.

BDU-nun "Dil və Ədəbiyyat" (2013) jurnalında onun haqqında "M.Ə.Rəsulzadə irsi tədqiqatlarda" sərlövhəli məqaləm çap edilmişdi. Məqaləni Şirməmməd müəllimə demədən yazdığım üçün bir az narahat idim (əslində bu məqaləni onun ad gününə hədiyyə etmək üçün yazmışdım). Kafedrada jurnalı ona təqdim etdim. Məqaləni oxuduqca, üz cizgilərindən və gözlərindən məmnun olduğunu hiss etdim. Bu, mənim üçün böyük bir mükafat oldu.

Dekabrın 17-də Şirməmməd Hüseynovun doğum günü idi.